

**HACIBALA ABUTALIBOV,**
Bakı şəhər İcra Hakimiyyətinin Başçısı

## HEYDƏR ƏLİYEV: NURA QƏRQ OLMUŞ MƏNALI ÖMRÜN PARLAQ SƏHİFƏLƏRİ

*"Hamı siyasətçi ola bilmir, amma hamı onların fəaliyyətini qiymətləndirə bilər".*

***Afina hakimi Strateq Perikl***

XX əsrdə Azərbaycanın müstəqilliyinin, eləcə də, dövlətçiliyinin yaranması, onun göz bəbəyi kimi qorunub saxlanılması, milli mənafelərimizin və ərazilərimizin təhlükəsizliyinin təmin edilməsi və xoşbəxt gələcəyimizin inkişafı naminə 1992-ci ilin noyabrında tarixin siyasi səhnəsinə çıxmış Yeni Azərbaycan Partiyası bu illər ərzində son dərəcə ziddiyyətli, məşəqqətli, mürəkkəb, lakin əmiyyətin daxili, maddi və mənəvi tələbatlarının qarantı kimi şərəfli və dəyanətli bir yol keçmişdir.

SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda yaranmış ictimai-siyasi və iqtisadi vəziyyətin pisləşməsi, başlıcası isə bu vəziyyətin təhlükəli son həddə çatması xalqı təlatümə gətirmişdi. Keçmiş respublika rəhbərliyi yaranmış böhranlı vəziyyəti aradan qaldırmaq iqtidarında deyildi. Azərbaycanda bu illərdə baş alıb gedən hakimiyyətsizlik, xaos və hərc-mərclik iqtidarın milli-dövlət maraqlarına cavab verməyən siyasətinə qarşı etiraz əlaməti olaraq küçə və meydanlara çıxan, e'tiraz səsini ucaldan xalq hərəkatının dalğaları üzərində hakimiyyətə gələn, heç bir dövlətçilik təcrübəsi olmayan naşı Cəbhə-Müsavat cütlüyü vəziyyəti daha da ağırlaşdırmışdı. Xalq öz taleyi haqqında yenidən düşünməli oldu. Düşmənin Azərbaycan torpaqlarına xaincəsinə təcavüzü və bu təcavüzün doğurduğu görünməmiş müsibətlər ölkədə daxili-siyasi vəziyyəti daha da gərginləşdirir və insanlarda dövlətə olan inamı sarsıdırdı.

Xalq başına gəldiyi bu faciəli vəziyyətdən çıxış yolları axtarır, onu xilas edə biləcək yeganə xilaskarını görmək ümidi ilə yaşayırdı. Xalqı bu bəladan xilas edəcək yeganə şəxs - Heydər Əliyevimiz bu zaman Naxçıvanda ağır blokada şəraitində öz siyasi fəaliyyətini davam etdirir, xalqın taleyi barədə düşünür, nicat yollarını axtarırdı. Halbuki, Muxtar Respublika özünün həmin dövrdə ən ağrılı və çətin günlərini yaşamaqda idi. Bu dövrdə Naxçıvan Ali Məclisinin sədri yorulmaq bilmədən çalışır və regionun taleyüklü məsələlərini yoluna qoyurdu. Respublikada dövlət itaətsizliyinin diktaturasını yaradanlar Azərbaycanın ayrılmaz



tərkib hissəsi olan Naxçıvana diqqəti artırmaq əvəzinə orada hakimiyyət çevrilişi etməyə və Xalq Cəbhəsini hakimiyyətə gətirməyə çalışırdılar. Lakin çevriliş cəhdi baş tutmadı. 1992-ci il oktyabrın 16-da xalqın, həmçinin demokratik hərəkatın sağlam qüvvələri "Səs" qəzeti vasitəsi ilə möhtərəm Heydər Əliyevimizə respublikada yaranmış böhranlı vəziyyətlə əlaqədar olaraq müraciət etdilər. Müraciətdə onun böyük siyasətə qayıtması təkidlə xahiş edilirdi. Çünki fəlakətli faciənin astanasında duran Azərbaycanın nicat yolu, qurtuluş günü tarixin nəhəng siyasət adamlarından olan Heydər Əliyevimizin hakimiyyətə qayıtmasında idi.

Qədim Şərq mənbələrində deyildiyi kimi, "Bədbəxtlik xoşbəxtliyə qalib gələndə, dostluq düşmənçiliklə, nizam-intizam hərc-mərcliklə yerini dəyişəndə, hər şeyi yenidən başlamağa, haqqı bərpa edəcək bir imama, ya ədalətli bir hökmdara ehtiyac hiss edilir".

1992-ci il noyabrın 21-də xalqın möhtərəm Heydər Əliyevimizi hakimiyyətdə görmək arzusu, istəyi, hətta inadlı təkidinin nəticəsi olaraq Naxçıvanda, Şərqin qapısında Yeni Azərbaycan Partiyası yaradıldı və Heydər Əliyevimiz partiyaya yekdilliklə sədr seçildi. Tədbir Azərbaycanın mütəfəkkir simalarından biri olan C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram teatrının binasında keçirilirdi. Naxçıvanın sərt qış günlərinin birində Azərbaycanın müxtəlif bölgələrindən tədbirə gəlmiş adamlar soyuq salonda əyinlərinə kürk, başlarına papaq qoyaraq, sual dolu nəzərlərini xilaskara dikərək, nicat yollarını ondan eşitmək istəyirdilər. Heydər Əliyevimiz zala daxil olmaqla sanki soyuq bir mühitə isti ab-hava gətirdi. Onun mənalı, bir qədər yorğun və qayğılı baxışları çox şeydən xəbər verirdi. Xəbər verirdi ki, qarşıda bizi gələcəyə aparan çətin, lakin həm də, şərəfli, eyni zamanda enişli-yoxuşlu yollar gözləyir. Ancaq mən sizinləyəm, xalqımlayam. Bu baxışlar deyirdi ki, xalqın mənafeyi yolunda daim təzyiqlərə məruz qalan, yanvar faciəsinin ertəsi günü Moskvada, Azərbaycan nümayəndəliyinin binasına gedib, imperiyanın qanlı siyasətini bütün dünyaya bəyan etməklə öz həyatını, ailəsinin taleyini təhlükə altında qoyan, lakin mərkəzin caynağından qurtulub yenidən millətinə qovuşan bir insan sizinlədir. Çünki onun həyatının qalan hissəsi də öz xalqına həsr olunacaq və belə olduqda o düşünəcək ki, bəli yaşadığım ömür mənalı ömür imiş. Heç də təsadüfi deyil ki, Qədim Çində Daosizmin banisi Lao-Tszı bu məsələ ilə əlaqədar belə deyirdi: "Ağıllı adamların ürəyi olmur, onun ürəyi xalqın ürəklərindən təşəkkül tapmalıdır".

Heydər Əliyevimizin sonrakı taleyi və fəaliyyəti göstərdi ki, o xalqın sədaqətindən və ona inamından bəhrələnərək, açılmamış qapıları açacaq və millətin dərdinə məlhəm olacaqdır.

Möhtərəm Prezidentimiz öz qəlbinin işığı ilə əfsanəvi qəhrəman Danko tək, Azərbaycan xalqını keçid dövrünün labirint qaranlıqları içərisindən keçirib işıqlı, nurlu sabaha aparmaq yolu ilə getdi, tərəddüd etmədən bu yolu seçdi.

Möhtərəm Heydər Əliyevimizin Yeni Azərbaycan Partiyasına rəhbərliyi üzərinə götürən gün, xalqın çiynindən ağır yük götürüldü. Azərbaycan xalqı heç cür

razı olmazdı ki, möhtərəm Heydər Əliyevimizin öz əllərilə qurduğu Azərbaycan naşı siyasətçilərin günahı üzündən uçuruma və məhvə doğru sürüklənsin.

Yeni Azərbaycan Partiyası məşhur siyasətçi, görkəmli dövlət xadimi kimi Heydər Əliyevimizin Azərbaycandakı nüfuzunun, hörmət və ehtiramının, xalqın Heydər Əliyev şəxsiyyətinə olan inam və məhəbbətinin nə qədər güclü və böyük olduğunu rəsmiləşdirdi və bütün dünyaya nümayiş etdirdi.

Dövlət başçısının xalq ilə bir olmasını böyük filosoflar və mütəfəkkirlər onun idarəçiliyinin yüksək məziyyəti bilmişlər. Vəzir Nizamülmülk "Siyasətnamə" kitabında yazır: "Xalqın dühası şahın dühası ilə birləşdikdə ölkə möhkəmlənər, günü-gündən inkişaf edər, var-dövlət artar, xoşbəxtlik hökmdarın üzünə gülər, bu dünyada yaxşı ad qazanar".

8 il keçəndən sonra Azərbaycan reallıqları bir daha göstərdi ki, o zaman möhtərəm Heydər Əliyevimiz və onun rəhbərlik etdiyi YAP ölkənin xilas yolunun tam və aydın perspektivlərini göstərmişdir. Partiya bəyan edirdi ki, böhran nə qədər dərin olsa da, başlıca şərt daxili sabitliyi, ictimai həyatın bütün sahələrində qanunçuluğu qorumaq, Azərbaycanın bu təhlükədən sovuşması və yeniləşməsi naminə aydın məqsədlər ətrafında ciddi və qəti tədbirlər görməkdən ibarətdir.

Lakin o zaman Yeni Azərbaycan Partiyasının hər hansı konstruktiv təklifləri nəinki qəbul olunmadı, əksinə, keçmiş iqtidar tərəfindən hər cür təqiblərə məruz qaldı. Doğru deyirlər: "Nə əkərsən, onu da biçərsən".

Kadr siyasətində ciddi nöqsanlara yol verən əvvəlki hakimiyyət dairələri mühüm dövlət vəzifələrinə elə təsadüfi adamları təyin etmişdilər ki, sonra onların xofu qarşısında özləri qaçmağa yer axtarırdılar.

Yeri gəlmişkən, böyük Azərbaycan şairi Nizami Gəncəvinin insan və cəmiyyət haqqındakı düşüncələrində vəzifələrə təyinat məsələləri də mühüm yer tutur. O, göstərir ki, ölkənin maddi və mənəvi yüksəlişi, ictimai tərəqqisi ona başçılıq edən adamın əməllərindən çox asılıdır. Bu münasibətlə o yazır: "Darğa insaflı olsa, əmir məqamına çatar. Əmir ədalətli olsa, ölkənin şahı olar".

1993-cü ilin iyun hadisələri, xaos və hərc-mərclik diktaturasını yaradan keçmiş iqtidar hakimiyyətinin son akkordu oldu.

Partiyamızın lideri, möhtərəm Heydər Əliyevimiz ümumxalq tələbi ilə paytaxta qayıdaraq, vətəndaş müharibəsi astanasında dayanan və parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycanı düşdüyü ağır vəziyyətdən xilas etmək məsuliyyətini öz üzərinə götürdü.

Ermənistan ilə müharibə vəziyyətində olan Azərbaycan üçün, ikinci cəbhə açaraq, onu parçalayıb dünya xəritəsindən silmək istəyən qüvvələrin təhriki ilə törədilən vətəndaş müharibəsinin qarşısını, cənub bölgəsində baş qaldırmış separatçılığın, şimal və qərb sərhədyanı rayonlarda baş verən buna bənzər hadisələrin qarşısını məhz Heydər Əliyev uzaqgörənliyi, qətiyyəti ala bildi.

Möhtərəm Prezidentimiz bir gedişlə hərbi müxalifəti neytrallaşdırıb, onlara dəstək verənləri çaş-baş saldı.



1993-cü il oktyabrın 3-də möhtərəm Heydər Əliyevimiz alternativ əsasda mütləq səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqın mütləq əksəriyyəti öz taleyini bir daha Heydər Əliyevimizə etibar etdi. Xalq bir daha başa düşdü ki, məhz Heydər Əliyevimizin sayəsində qardaş qırğınının qarşısı alındı, təhlükəsizliyi təmin edildi, vətənimiz parçalanmaq təhlükəsindən xilas oldu, dövlətçiliyimiz və müstəqilliyimiz qorundu və inkişaf etdirildi.

1993-cü il noyabrın 2-də xalqa Heydər Əliyevimizin müraciəti geniş əks-səda doğurdu. Vətənin qeyrətli oğulları torpağın müdafiəsinə qalxdı. Düşmən hücumlarının nəinki qarşısı alındı, hətta bir sıra döyüşlərdə düşmən ciddi tələfat verdi və hiss etdi ki, hərbi qüvvə ilə daha məqsədinə nail ola bilməyəcəkdir. Dövlətin möhkəmləndirilməsində ordu quruculuğuna möhtərəm Heydər Əliyevimizin yetirdiyi diqqət və qayğısının nəticəsi idi ki, atəşkəs barədə razılıq əldə edildi.

1993-cü ilin ikinci yarısı dövlətçiliyimizin xilası, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, bütün gələcək tərəqqinin əsasını qoyan möhkəm ictimai-siyasi sabitliyin yaradılması dövrü kimi qiymətləndirilir.

Tarixi həqiqətlər və real gerçəklik bir daha sübut etdi ki, müstəqillik eşqi ilə yaşayan və öz əvəzedilməz liderinə dərin hörmət bəsləyən xalqın istək və inamını, düşüncə tərzini və təfəkkürünü heç kim nə hədə-qorxu, şantajla, nə də silah və zor gücünə sındıra bilməz.

1994-95-ci illərdə dövlətə, müstəqilliyimizə xəyanət edənlərin, dövlət çevrilişi cəhdlərinin qarşısı məhz xalqın Prezidenti ətrafında birləşməsi və yaxından köməyi ilə alındı.

1993-1998-ci illərdə nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövr olsa da, məzmun etibarı ilə müdrikliyin, böyük dövlətçilik təcrübəsinin, iradə yenilməzliyinin, vətən sevgisinin təntənəsi dövrü, vətənin xilası, xalqın müstəqilliyə, dövlətçiliyə, azadlığa, xoş gələcəyə inamının bərpası dövrü kimi yadda qalacaqdır.

Bu illərdə partiya sədri möhtərəm Heydər Əliyevimizin bilavasitə rəhbərliyi ilə, 90-cı illərin əvvəllərində Azərbaycan dövlətçiliyi üçün mövcud təhlükələr aradan qaldırılmış, möhkəm sabitlik yaradılmış, müstəqilliyimiz dönməz və əbədi xarakter almışdır.

Bu mənada Demokrit dövlətçiliklə bağlı fikirlərini belə izah edirdi: "Yaxşı idarə olunan dövlət ən böyük dayaqdır. Elə dövlət hər cür tərifə layiqdir. Nə qədər ki, o mövcuddur, rahatlıq və əmin-amanlıqdır".

Sokrat isə belə hesab edir ki, "dövlətə təcrübəli, səriştəli adamlar başçılıq etməlidirlər". O, dövlət başçısını gəmi kapitanı ilə müqayisə edərək, göstərirdi ki, "gəmini müəyyən biliyə, təcrübəyə və vərdişlərə malik olan adamlar idarə edə bildiyi kimi, dövləti də o qabildən olan adamlar idarə etməlidirlər".

Dağlıq Qarabağ probleminin sülh yolu ilə aradan qaldırılması, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ölkəmizin dünya birliyində layiqli yer tutması cənab Prezident və möhtərəm partiya sədrimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətinin ana xəttini təşkil etmişdir.

Vaxtilə dövlət başçılarının xarici siyasət məsələlərinə toxunan Nəsirəddin Tusi yazırdı: "Qonşu dövlət düşmən kəsildikdə, onu yola gətirib onlarla saziş bağlamağa son dərəcə səy göstərməli və ehtiyatlı olmalıdır, lakin elə etməlidir ki, müharibə, ölüb-öldürməyə ehtiyac qalmasın".

Möhtərəm Heydər Əliyevimizin müdrik və düzgün xarici siyasət xətti nəticəsində respublikamız ilə dünyanın ən inkişaf etmiş ölkələri arasında bərabər hüquqlu dostluq və əməkdaşlıq münasibətləri yaranmışdır. Azərbaycan isə həmin ölkələrin strateji partnyoruna çevrilmişdir.

Yalnız möhtərəm Heydər Əliyevimizin çevik diplomatiyası nəticəsində Azərbaycana qarşı informasiya blokadası yarıldı, dünyanın bütün demokratik dövlətlərinin və aparıcı ictimai-siyasi təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini dəyişdirməyə nail olundu. Aparılan ardıcıl və məqsədyönlü siyasətin nəticəsində ilk dəfə ATƏT-in Budapeşt sammitində Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsi gündəliyə çıxarıldı. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri dəstəklədi.

Azərbaycanın diplomatik səylərinin nəticəsidir ki, indi ABŞ və Avropanın bir sıra nüfuzlu dövlətləri Dağlıq Qarabağ probleminin həll edilməsinə diqqəti artırmış, bununla onlar Azərbaycanın iqtisadi və siyasi partnyoru olmaqda maraqlı olduqlarını büruzə vermişlər.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir. Bir çox nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür.

Yeni Azərbaycan Partiyasının rəhbərliyi altında aparılan proqram xarakterli bütün məsələlər Azərbaycan xalqının rifahına yönəlmişdir. Biz YAP-ın üzvləri, ona dəstək verən hər bir Azərbaycan vətəndaşı, partiyanın bütün məqsədyönlü fəaliyyətinin istiqamətlərini bəyənir və müdafiə edirik. Yeni Azərbaycan Partiyası bu gün respublikanın ən kütləvi və aparıcı partiyasıdır. Çünki xalq ona etibar edir. Ona görə ki, partiyaya möhtərəm Heydər Əliyevimiz kimi şəxsiyyət rəhbərlik edir.

Partiyanın siyasi xəttinin ən üstün cəhətlərindən olan demokratik, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının köklü prinsiplərinin bərqərar olmasına zəmin yaratmışdır.

Möhtərəm Prezidentimizin iqtisadi təfəkkürünün bəhrəsi olaraq özəlləşdirməyə dair iqtisadi islahatların aparılması nəticəsində əhalinin maddi imkanları əhəmiyyətli dərəcədə yaxşılaşmaqdadır. Təqaüd və müavinətlərin artırılması, büdcədən maliyyələşdirilən təşkilatların əmək haqlarının müntəzəm artırılması buna sübutdur. Bazar iqtisadiyyatına keçid şəraitində adamların güzəranının yaxşılaşdırılması, sosial müdafiəsi məsələləri Prezidentimizin daim diqqət mərkəzindədir.

Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsas atributlarından sayılan siyasi plüralizmə rəvac verilməsi, söz, mətbuat və vicdan azadlığının təmin edilməsi, siyasi partiyaların və ictimai, qeyri-hökumət təşkilatların fəaliyyəti üçün hərtərəfli şərait yaradılması, ölkəmizdə demokratik ənənələrin formalaşması prosesindən xəbər verir.



Mənəvi və əxlaqi dəyərlərlə bağlı ideya-tərbiyə işinin güclənməsi, milli mənlik və dövlətçilik şüurun, milli və ümumbəşəri təfəkkürə söykənən azərbaycançılıq ideologiyasının yaranması mexanizmi Yeni Azərbaycan Partiyasının proqram xarakterli vəzifələri kimi qiymətləndirilə bilər.

Azərbaycanda müstəqil dövlət quruculuğunun vüsət aldığı məsul bir dövrdə, bir il əvvəl xalqımızın ən geniş intellektual təbəqəsini öz sıralarında cəmləmiş Yeni Azərbaycan Partiyasının birinci qurultayının keçirilməsini tarixi bir hadisə hesab etmək olar.

Qurultayda respublikamızda, onun ətrafında, beynəlxalq aləmdə baş verən hadisələrlə yanaşı, partiya daxili proseslərə dərin təhlil verildi və hazırkı fəaliyyətimizin əsas istiqamətləri müəyyənləşdirildi.

Siyasi Şuranın üzvləri seçildi. Siyasi Şuranın iclasında isə idarə heyəti, partiyanın sədr müavinləri seçildi.

Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, alim, siyasətdə öz dəsti-xətti ilə tanınan, dünyanın ən böyük siyasətçiləri tərəfindən qəbul edilən hörmətli İlham Əliyevimizin YAP-a sədr müavini seçilməsi isə, YAP həyatında ən böyük siyasi hadisə kimi qiymətləndirilməlidir.

Partiya böyüdüyünə, genişləndiyinə, həm də sayının artdığına görə, onun əməli işini daha da gücləndirmək məqsədi ilə nizamnamədə nəzərdə tutulduğu kimi YAP-ın icraçı katibi və müavinlər seçildi.

Partiya strukturundakı yeni dəyişikliklər, Nizamnamə və Məramnaməyə edilən əlavələr və təkliflər partiya həyatının daha da təkmilləşməsi üçün yeni perspektivlər açmış, onun gələcək inkişaf yollarının mexanizmini açıb göstərmişdir.

Qurultayın partiya qarşısında qoyduğu əsas vəzifələrdən biri də partiyanın boy sırasının artırılması, onun keyfiyyət tərkibinin daim yaxşılaşdırılması, yeni qəbulda gənclərə üstünlük verilməsi, ilk partiya təşkilatlarının möhkəmləndirilməsidir.

Qurultayın YAP üzvlərinin partiya mənsubiyyətini təsdiq edən üzvlük vəsiqələrinin hazırlanması və onların YAP üzvlərinə təqdim edilməsi haqqındakı qərar icra olunmuşdur.

Məlum olduğu kimi 2000-ci il 5 noyabr seçkilərində Milli Məclisə YAP üzvlərindən ibarət 72 nəfər deputat seçildi. Bu partiyanın növbəti yeni qələbələrindən biri oldu.

Azərbaycanın gələcək inkişaf yolunu və perspektivlərini YAP müəyyənləşdirir. Bu yolun düzgünlüyü və xalq tərəfindən müdafiə olunduğunu həyat özü sübut etmişdir. Biz inanırıq ki, uzun illər YAP ölkənin aparıcı siyasi qüvvəsi olacaq və xalqımızın milli mənafelərinə xidmət edəcək.

Əleyhdarlarımız bilməlidirlər ki, siyasi səhnədə onlara yer yoxdur, onların yeri arxivdədir. Özü də onların bağlanmış kitabını arxivin ən uzaq küncünə qoymaq lazımdır ki, yaxın keçmişimizin rüsvayçı səhifələri heç vaxt yada düşməsin.

Gündəlik işimizdə xüsusi diqqət tələb edən mühüm məsələlərdən biri də xalqa, millətə, Heydər Əliyevimizə sədaqətli gənclərin dövlət quruculuğunun bütün sahələrinə cəlb edilməsidir. Təsisatlarında gənclərin fəal təmsil olunmadığı dövlət və ya hər hansı bir təşkilat köhnəlmiş idarəetmə formalarına yuvarlanır və ya əksinə, gənclərin mütərəqqi hissəsinin iştirakı ilə dövlət təsisatlarında işin üslub, forma və metodları daim təkmilləşir və yeniləşir, yeni ehtiyatlar üzə çıxır.

YAP-a gənclərin axını sevindirici haldır. Gənclər öz taleyini partiyamızla bağlayırsa, bu o deməkdir ki, onlar yaxın gələcəkdə ölkənin ictimai-siyasi həyatında gedən proseslərin aparıcı qüvvəsinə çevriləcəklər.

Bizcə, belə gənclərin irəli çəkilməsi, onlara etibar edilməsi nəinki partiyanın sıralarını möhkəmləndirər, həm də partiyamız, gələcəkdə ölkənin idarə olunması işlərində onların təcrübəsindən istifadə etmək baxımından faydalana bilərdi.

Kadr hazırlığı ilə bağlı məsələlərə toxunduqda ilk növbədə onu qeyd etmək lazımdır ki, Heydər Əliyevimizin nəinki Azərbaycanda, hətta keçmiş postsovet məkanında bir çox tanınmış siyasət adamlarının, dövlət rəhbərlərinin yetişməsində, siyasi xadim kimi formalaşmasında böyük əməyi və zəhməti olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycanda Heydər Əliyevin siyasi irsini, siyasi təfəkkürünü və siyasi mədəniyyətini dərindən öyrənən, tədqiq edən məktəblər mövcuddur. Bu məktəblərin dinləyiciləri — tələbə - gənclərdən tutmuş siyasət aləmində tanınmış görkəmli şəxslərə qədər Heydər Əliyev fenomenini, müstəqillik və dövlətçilik ənənələri ilə bağlı zəngin təcrübəsini öyrənir və onu hamılıqla öz müəllimi hesab edir. Azərbaycanda Heydər Əliyev adına məktəblərin fəaliyyət göstərməsində müəllim sənətinə yüksək ehtiram və hörmət əlaməti olaraq təbii bir qanunauyğunluq, Şərq aləminə xas olan tarixi bir varislik prinsipi mövcuddur.

Məsələn, Şərqin ulu gövhərlərindən sayılan Azərbaycan filosofu Nəsirəddin Tusi hörmət mənasında müəllimi ata-anadan ayırmamışdır. Onun müəllimə olan məhəbbəti Allah məhəbbəti ilə valideyn məhəbbəti arasında bərabər tutulmuşdur. Vaxtilə Makedoniyalı İskəndərin də müəllim sənətini yüksək qiymətləndirməsi göstərilir. İskəndərdən soruşurlar: "Atanı çox sevirsən, yoxsa müəllimini? Dedi: "Müəllimimi! Atam məni fani dünyaya gətirmişdir, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir".

Xalqına və vətəninə xidmət edən hər bir kəs cəmiyyətdə milli barışığı əsas götürməlidir. Möhtərəm Heydər Əliyevimizin bəyan etdiyi kimi xalqımızın birliyi gələcək uğurlarımızın təməlidir. Nəzərə alaq və real həqiqəti dərk edək ki, bu günkü nailiyyətlərimiz məhz möhtərəm Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycanda demokratiyanın bugünkü səviyyəsi dünyanın inkişaf etmiş sivil dövlətləri tərəfindən müsbət qəbul edilir. Onu inkişaf etdirmək hər kəsin vəzifəsi olmalıdır. Ölkəmizin gələcəyi bu günün özündən daha çox asılıdır. Əgər dağıdıcı müxalifət cərgəsində dayananlar heç olmasa, ümummilli mənafe naminə partiyanın və onun liderinin danılmaz fəaliyyətinə qara yaxmaq yolundan çəkilsəydilər, müvəffəqiyyətlərimiz daha da uğurlu ola bilərdi. Möhtərəm Heydər Əliyevimizin müxalif qüvvələrin hərtərəfli və normal fəaliyyəti üçün yaratdığı hər cür əlverişli imkanlar qiymətləndirilsəydi, qazancımız daha böyük ola bilərdi.



Dağıdıcı müxalifət qüvvələri nəzərə almalıdırlar ki, onların zorakılıq metodları ilə hakimiyyətə gəlmək və məğlub olduqda hay-küy salaraq, Azərbaycan haqqında mənfi rəy yaratmaq səyləri, xalq tərəfdən birmənalı şəkildə qəbul edilmir.

Heç də təsadüfi deyil ki, Şərqin bir çox tanınmış filosofları yaşadığı dövründən, zamanından asılı olmayaraq cəmiyyətdə mənfi adamların olmasını mümkün sayır və onları alaqlar adlandırır, bunları buğda içərisində çovdara və ya tarla içərisində tikana oxşadırlar.

YAP-ın sədri möhtərəm Heydər Əliyevimizin dediyi kimi "Yeni Azərbaycan Partiyasının böyük gələcəyi vardır. Çünkü ötən müddətdə bu partiya, vətəndaşlarımıza və bütün dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir partiyadır. Azərbaycan xalqının taleyi ilə əlaqədar məsuliyyəti öz üzərinə götürüb daşıya bilən bir partiyadır. Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaqdır".

Bizim bugünkü gerçəkliyimiz Azərbaycanın geniş inkişaf perspektivləri olduğunu sübut edir. Qarşımızda duran vəzifə möhtərəm Heydər Əliyevimizin rəhbərliyi altında nailiyyətlərimizi artırmaqdan, müstəqilliyimizi möhkəmləndirməkdən, xalqın rifahını yüksəltməkdən, ölkənin iqtisadiyyatını inkişaf etdirməkdən və hüquqi, demokratik, sivil, dünyəvi Azərbaycan Respublikasını dünya miqyasında nüfuzlu və qüdrətli bir dövlətə çevirməkdən ibarətdir.

Hər bir xalq tarixən özünün yetirdiyi dahi şəxsiyyətlərə görə tanınır. Bu fikri tam qətiyyətlə və mübaliğəsiz olaraq yüksək fəlsəfi təfəkkürə, möhkəm iradəyə, sabit əqidəyə malik olan H.Ə.Əliyevimiz haqqında demək olar.

XX əsr Azərbaycanın siyasi səmasında parıldayan ən parlaq ulduz H.Ə.Əliyevimiz öz təmiz əxlaqı, yüksək mədəniyyəti, dərin zəkası, əməli fəaliyyəti ilə nəinki tarixdə Azərbaycan adını qızıl hərflərlə yazanlardan oldu, o, hətta bu adı müqəddəsləşdirərək, ona əbədi möhür qoydu.